***Azərbaycan xalqı ötən əsrdə Ermənistanın məqsədyönlü şəkildə həyata keçirdiyi etnik təmizləməyə məruz qalmışdır. Ərazilərində məskunlaşmış ermənilərin zamanla torpaq iddiasına düşməsi hər dəfə böyük faciələrə yol açmış, minlərlə azərbaycanlının qətlə yetirilməsinə, yurd-yuvasından didərgin salınmasına səbəb olmuşdur. Deportasiyalar nəticəsində qədim torpaqlarımız olan Qərbi Azərbaycandan soydaşlarımız məcburi şəkildə çıxarılmışdır. Ermənilər onların bütün var-dövlətini mənimsəmiş, milli-mənəvi dəyərlərini məhv etmişdir. Əslində, yerli əhalinin zorakılıqla öz torpaqlarından çıxarılması sovet hakimiyyətinin həyata keçirdiyi siyasi repressiyanın xüsusi forması və azərbaycanlılara qarşı törədilən təxribat idi. Tarixi yurdlarından min illərlə yaşamış millətin öz köklərindən qoparılaraq didərgin salınması məqsədli şəkildə düşünülən planın tərkib hissəsi idi. Çünki Azərbaycan ərazilərinə köçürülmüş ermənilərin özlərinə dövlət qurmaq üçün ən əlverişli məkan Qərbi Azərbaycan əraziləri idi. Xain düşmən daim öz çirkin əməllərini reallaşdırmaq üçün məqam gözləyirdi. Bu məqsədlə də Zaqafqaziyada sovet hakimiyyəti qurulduqdan sonra ermənilər Zəngəzur mahalını və Azərbaycanın bir sıra torpaqlarını Ermənistanın ərazisinə birləşdirdilər. Sonrakı mərhələdə soydaşlarımızın həmin torpaqlardan deportasiyası daha rahat şəkildə mümkün oldu.***

# 77 il əvvəl törədilən erməni cinayəti

Daha geniş ərazilər tutmaq üçün ermənilər ovaxtkı SSRİ rəhbəri Stalinə məktubla müraciət etdilər. Belə ki, 1945-ci il mayın 15-də Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Q.Arutinov xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi haqqında qərarın qəbul edilməsilə bağlı məktub yazır. Oktyabrın 27-də Q.Arutinov İ.Stalinin qəbulunda olur və Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında məktubunu Stalinə təqdim edir. Nəticədə, 21 noyabr 1945-ci il tarixdə "Ermənilərin xaricdən Sovet Ermənistanına qayıtmaları ilə əlaqədar tədbirlər haqqında" qərar qəbul edilir. Bundan bir həftə sonra ÜİKP MK-nın ikinci katibi G.Malenkov Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi barədə Arutinovun Stalin qarşısında qaldırdığı vəsatəti Azərbaycan KP MK-nın birinci katibi M.C.Bağırova göndərir. 1945-ci il dekabrın 10-da M.C.Bağırov məktuba cavab olaraq bildirir ki, o, Q.Arutinovun təklifi ilə o şərtlə razıdır ki, Şuşa istisna olmaqla, Ermənistanın əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Əzizbəyov, Vedi və Qarabağlar rayonları Azərbaycana birləşdirilsin. Bundan sonra həmin məsələ qapadılmış, azərbaycanlıların Ermənistandan deportasiyası aktuallaşmışdı.

Erməni daşnaklar Qərbi Azərbaycan ərazisindən köçürülməni rəsmiləşdirmək məqsədilə SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarın qəbuluna nail olurlar. "Kolxozçuların və digər Azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar azərbaycanlıların tarixi torpaqlarından kütləvi deportasiyasının rəsmiləşdirilməsi idi. Bu, günahsız insanlara qarşı cinayət əməli və sovet hökumətinin ədalətsiz qərarlarından idi. Nəticəsi isə dəhşətli oldu. Belə ki, 1948-1953-cü illərdə 150 mindən çox Azərbaycanlı kütləvi surətdə Qərbi Azərbaycan torpaqlarından didərgin salındı, onlara qarşı ağır repressiyalar həyata keçirildi. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirildi, qədim toponimlərin müasir erməni adları ilə əvəzlənmədi, bir çox tarixi abidələr eləcə də dini ibadətgahlar - məscidlər qəbiristanlıqlar dağıdıldı.

Dekabrın 23-də azərbaycanlıların tarixi torpaqlarından deportasiyasını özündə əks etdirən qərarın imzalanmasından 77 il keçir. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı idi. Bu qərarlar əsasında 1948-1953-cü illərdə iki yüz minə yaxın azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Hüquq normalarına zidd



olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar.

Deportasiya üçün lazımi vəsait və maddi-texniki yardımın ayrılması nəzərdə tutulsa da bu, sadəcə kağız üzərində qalmışdır. Deportasiyaya məruz qalan insanların var-dövləti, əmlakı əlindən alınmış yaşadıqları iqlimə uyğun regiona köçürülmək istəkləri də rədd edilmişdir. Deportasiya haqqında qanunda vətəndaşların köçürülməsinin öz istəklərinə uyğun aparılması qeyd edilsə də bunlar nəzərə alınmamışdır.

Qərara əsasən, köçürülən hər ailəyə 2 ton ev əşyası və kənd təsərrüfatı heyvanlarını aparması üçün dövlət hesabına pulsuz gediş nəzərdə tutulurdu. Köçkünlərin ailələrinə - ailə başçısına 1000 manat və ailənin hər bir üzvünə 300 manat məbləğində müavinət ayrılmışdı. Məskunlaşdıqları yerlərdə isə ailə başçısına 1,5 sentner və hər bir üzvünə 0,5 sentner nağd hesabla taxıl satılması planlaşdırılmışdı. Eyni zamanda köçürüləcək insanların Ermənistan SSR-dən Azərbaycan SSR-ə xüsusi düzəldilmiş eşalonla vaqonlarda daşınması idi. Lakin bunların heç biri həyata keçirilmədi, soydaşlarımız tarixi ata-baba yurdlarından zorla, işgəncə ilə qovuldular.

Qərarın 11-ci bəndində bildirilirdi: "Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə etsinlər".

Təkcə 1946-cı ildə Suriya, Yunanıstan, Livan, İraq, Bolqarıstan və Rumıniyadan 50 min 900 nəfər erməni immiqrasiya edilir. 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İraq və Livandan gələn 35,4 min nəfər erməni Ermənistanda yerləşdirilir. Ermənistan rəhbərliyi 1946-cı ilə nisbətən 1947-ci ildə xaricdən gətirilən ermənilərin sayının azalmasının səbəbini onunla izah edirdi ki, xaricdən gələn ermənilər əsasən şəhər sakinləridir, onları dağlıq rayonlarda yerləşdirmək mümkün deyil, köçürülənlər isə yalnız İrəvan və onun ətraf rayonlarında məskunlaşmaq istəyirlər. Ümumiyyətlə, 1946-1949-cu illərdə xarici ölkələrdən Ermənistana 96 min erməni köçürülmüşdü ki, onların da xeyli hissəsi əsasən şəhər ətrafındakı Nor-Areş, Zeytun, Nor Kilikiya massivlərində məskunlaşdırılmışdılar.

Lakin azərbaycanlıların Ermənistandan köçürülməsini müəyyən edilmiş müddətdə həyata keçirmək mümkün olmur. Bu səbəbdən də 1950-ci il sentyabrın 6-da SSRİ Nazirlər Soveti "1951-1955-ci illərdə Azərbaycan SSR-in Kür-Araz ovalığının kolxozlarına köçürülmə haqqında" yeni qərar qəbul edir. Qərara əsasən, müəyyən edilmiş müddət ərzində Ermənistan SSR-dən 15 min kolxozçu və digər azərbaycanlı əhali köçürülməli idi. Ona görə də Moskva köçürmə kampaniyasının müddətini uzadaraq 23 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixli əvvəlki qərarlara əsasən müəyyən edilmiş 100 minə kimi arzuolunan rəqəmə nail olmağa çalışırdı. Lakin Azərbaycan SSR-in Kənd Təsərrüfatı naziri İ.Abdullayevin Azərbaycan KP MK-nın katibi İ.Mustafayevə və Nazirlər Sovetinin sədri T.Quliyevə ünvanladığı 13 oktyabr 1953-cü il tarixli məktubundan görünür ki, Moskva öz niyyətinə tam şəkildə çatmamışdır. 1948-1953-cü illər ərzində Ermənistan SSR-dən 11914 təsərrüfat (53000 nəfər) Kür-Araz ovalığına köçürülmüşdü.



1953-cü ildə İ.Stalinin ölümündən sonra vəziyyət dəyişir, azərbaycanlıların Ermənistan ərazisindən köçürülməsi dayanır və yaşayış şəraiti ağır olan insanların öz yer-yurdlarına geri qayıtması prosesi başlayır. Ancaq erməni xainliyi yenə də öz işini görür. Soydaşlarımızın yenidən ata-baba yurdlarına dönüşü baş tutsa da haylar onlara qarşı qısqanc yanaşır və bütün strukturlarda sıxışdırırlar. Məsələn, Qarabağlar, Vedi, Zəngibasar, Krasnoselo rayonlarının partiya komitələrinin azərbaycanlı birinci katibləri, digər 10 rayonda isə ikinci və üçüncü katibləri vəzifədən çıxarılır, yerlərinə erməniləri təyin edilir. Amasiya, Basarkeçər və Krasnoselo rayonlarından başqa, yerdə qalan rayonlarda Azərbaycan dilində çıxan qəzetlər bağlanır. İrəvan və digər şəhərlərin azərbaycanlı əhalisi bilərəkdən azaldılır, ermənilərin sayı artırılır. Bütün bu proseslər davamlı xarakter daşıyırdı.

1997-ci il dekabrın 18-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı Fərmanla 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistandan deportasiyasına ilk dəfə hüquqi-siyasi qiymət verildi. Fərmanda bildirilir: "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, odövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır".

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

Respublika.- 2024.- 22 dekabr (№ 283).- S.15.